# Milli məfkurəmizin yorulmaz tədqiqatçısı

**Tanınmış tənqidçi, publisist, filologiya üzrə fəlsəfə doktoru, Əməkdar Mədəniyyət İşçisi, "Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turanın 60 illik yubileyi Neftçala rayonunda qeyd olunub.**



Mərasimdən öncə Azər Turanın ata ocağı – ədəbiyyatşunas alim mərhum İmamverdi Əbilovun evindəki zəngin şəxsi kitabxanası ziyarət olunub. Ardınca yubilyarın kitablarından ibarət sərgiyə baxış keçirilib və Azər Turan yaradıcılığını əks etdirən videoçarx izlənilib.

Yubiley gecəsində Azərbaycan Yazıçılar Birliyinin birinci katibi, Xalq yazıçısı Çingiz Abdullayev, Milli Məclisin deputatları – akademik Nizami Cəfərov, Xalq şairi Sabir Rüstəmxanlı, yazıçı, Əməkdar Jurnalisti Aqil Abbas, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Alqış Həsənoğlu, tənqidçi, filologiya elmləri doktorları Elnarə Akimova və Qulu Məhərrəmli çıxış edərək, Azər Turan yaradıcılığından söz açıb, ona ən xoş diləklərini yetiriblər. Xalq şairi Nəriman Həsənzadənin yubilyara ünvanladığı videotəbrik səsləndirilib.

Neftçala RİH-in başçısı Mirhəsən Seyidov bildirib ki, Azər Turan imzası ilə ictimai və elmi mühitdə mühüm mövqeyə malik ədəbiyyatşünas, tənqidçi və yazıçıdır. O, həm də Cavidlər ocağının mənəvi varisi kimi qələmə aldığı "Cavidnamə"ləri ilə geniş oxucu kütləsinin rəğbətini qazanıb. Eyni zamanda Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Məhəmməd Hadi, Bəkir Çobanzadə, Ömər Faiq Nemanzadə kimi görkəmli şəxsiyyətlərlə bağlı qiymətli əsərlər yazıb.

Sonda Azər Turan çıxış edərək, yubileyi ilə əlaqədar ona göstərilən yüksək ehtirama görə rayon rəhbərliyinə, qonaqlara və Neftçala ictimaiyyətinə minnətdarlığını bildirib.

***Ə.NƏCƏFXANLI***
***XQ***

Xalq qəzeti.-2023.- 6 dekabr, № 266.- S.10.